

LAYİHƏ

**TİKİNTİDƏ SAHİBKARLIĞIN ROLU ARTIR**

SƏH. 2



TİKİNTİ

**Tikinti sektorunda aparılan irimiqyaslı işlər davamlı inkişaf imkanlarını artırır**

SƏH. 3



VERGİ

**Əsas məqsəd daha işlək və mütərəqqi idarəetmə mexanizminin tətbiq olunmasıdır**

SƏH. 4

iqtisadi qüdrətimiz naminə!

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

№ 37 (932)
16 - 22 sentyabr
2016-cı il

Həftəlik iqtisadi, ictimai-siyasi müstəqil qəzet

Qiyməti razılaşma yolu ilə

Qəzet 1999-cu ildən çıxır

# Salam, məktəb!





**Nəhayət, Bakının və bölgələrin bütün məktəbləri qapılarını uşaqların üzünə açdı. Növbəti dərs ilinə start verildi. Paytaxtda və bölgələrdə yeni məktəb binalarının inşası, mövcud məktəblərin əsaslı şəkildə yenidən qurulması Azərbaycanda təhsil islahatlarının ardıcıl xarakter aldığını nümayiş etdirir.**

Prezident İlham Əliyevin ölkədə təhsilin inkişafına göstərdiyi diqqət və qayğı, bu sahəni dövlət siyasətinin mühüm prioritetləri sırasına daxil etməsi təsadüfi deyil. Çünki ulu öndər Heydər Əliyevin də dediyi kimi, təhsil millətin gələcəyidir. Prezident İlham Əliyev də bu siyasəti uğurla davam etdirir. Bu siyasət həm də son illərdə tədris prosesinin günün tələbləri səviyyəsində qurulmasına imkan verən müasir məktəb binalarının inşasına istiqamətlənib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də - Bilik günündə Bakının Sabunçu rayonunda yerləşən 311 nömrəli tam orta məktəbin yeni binasının açılış mərasimində iştirak edib.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı Azərbaycan Prezidentinə məlumat vermişdir. Məktəbdə yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyev təhsil ocağının müəllim və şagirdləri ilə görüşmüşdür.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Binəqədi rayonunda əsaslı təmir edilmiş 9 nömrəli Bakı Peşə Liseyinin bazasında yaradılmış IT STEP akademiyasında görülən işlərlə tanış olub.

Təhsil naziri Mikayıl Cabbarov dövlətimizin başçısına məlumat vermişdir ki, 9 nömrəli Bakı Peşə Liseyinin tədris korpusu bu il əsaslı təmir olunub. Ümumi sahəsi 1400 kvadratmetrdən çox olan korpusda yeni dərs ilindən IT STEP akademiyası fəaliyyət göstərəcək.

IT STEP akademiyası 1998-ci ildə yaradılıb və hazırda dünyanın 17 ölkəsində 44 filialı var. Akademiyada 3 ixtisas sahəsi - kompyuter qrafikası və dizayn, proqram təminatı, şəbəkə texnologiyası üzrə mütəxəssislər hazırlanır. Tədris prosesi 1900 akademik saatdan ibarətdir və 2 il yarım çəkir. IT STEP-i bitirən müdavimlərə diplomla yanaşı, "Cisco Microsoft" və "Autodesk" şirkətlərinin sertifikatları da verilir.

Bakıda fəaliyyətə başlayan akademiyada 8 yaşından 55 yaşınadək 2100 şəxs təhsil ala bilər. Qeyd edək ki, yeni təhsil sistemində peşə təhsilinin inkişaf etdirilməsi prioritet istiqamət kimi müəyyən olunub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Bakının Nizami rayonundakı 12 nömrəli tam orta məktəb üçün tikilmiş yeni tədris korpusunda yaradılan şəraitlə tanış olub.

* * *

Bakının Nizami rayonundakı 32 nömrəli tam orta məktəb üçün yeni tədris korpusu tikilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də yeni tədris korpusunda yaradılan şəraitlə tanış olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakının Xətai rayonundakı 261 nömrəli məktəb-liseydə aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olub.

1979-cu ildən fəaliyyətdə olan məktəbdə bu il ilk dəfə təmir işləri aparılıb. Əsaslı təmir və yenidənqurma işləri Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın tədbirlər planında təhsil sahəsində nəzərdə tutulmuş tədbirlərin icrası çərçivəsində həyata keçirilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Xətai rayonundakı 58 nömrəli tam orta məktəbin binasında əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.

Dövlətimizin başçısının məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı müəyyənləşdirdiyi strategiya nəticəsində ölkəmizdə güclü təhsil infrastrukturu formalaşıb. Milli dəyərlər üzərində qurulan təhsil modeli isə gənc nəslin nümunəvi vətəndaş kimi formalaşmasında mühüm rol oynayır.

Beləliklə, ötən illərdə ölkəmizdə heç bir dövrdə olmayan qədər məktəb binası tikilib, bir çox təhsil ocağı üçün yeni tədris korpusları inşa olunub. Bu proses ən ucqar yaşayış məntəqələrini də əhatə edib. Heydər Əliyev Fondu da dövlət səviyyəsində həyata keçirilən bu proqrama hərtərəfli dəstək göstərib. Bununla da Azərbaycanda yüzlərlə məktəbin tikilməsi, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, bir sözlə, ölkədə nəhəng təhsil infrastrukturunun formalaşdırılması yeni təhsil modelinin tətbiqindən irəli gələn uğurlar sayəsində mümkün olub. Bu modelin nailiyyətlərini isə mükəmməl təhsil konsepsiyası təşkil edir.




# İnşası 2018-ci ilin dekabrında yekunlaşacaq

**Trans-Anadolu Boru Kəmərinin (TANAP) Türkiyədəki son hissəsinin çəkilişini "Limak" (Türkiyə)-"Punj Lloyd" (Hindistan)-"Kalyon Group" (Türkiyə) şirkətlər konsorsiumu həyata keçirəcək. Boru kəməri 2018-ci ilin dekabrın 28-də tamamlanacaq.**



Məlumata görə, "Limak" şirkəti hazırda 4 ortağı ilə 3 hava limanının inşasını davam etdirir. Həmçinin, 3 körpüyə bağlanan yolların da inşasını bitirməyi hədəfləyib.

"Limak"ın İdarə Heyətinin sədri Nihat Özdemir deyib ki, TANAP-ın 4-cü mərhələsinin uzunluğu ümumilikdə 459 km-dir və artıq işlərə başlanılıb. Qurum rəsmisi həmin ərazidə boruların 48 düyümlük olduğunu da açıqlayıb: "O nöqtədən bizə aid dolan bölümün birinci hissəsi artıq bitmək üzrədir. Sonra bir dəniz keçidi var. Onun da inşası həyata keçiriləcək. Dənizi keçdikdən sonra Yunanıstan sərhədinə qədər olan hissəni də inşa edəcəyik. TANAP-da görəcəyimiz işlərin dəyəri 413 mln. dollar təşkil edir. 2018-ci ilin dekabrın 28-ə işləri təhvil verməyi planlaşdırırıq".

N.Özdəmir deyib ki, hazırda TANAP üzrə işlərə 1 400 nəfər cəlb edilib: "Hazırda TANAP üzrə işlərimizdə 1 400 nəfər çalışır, 2 sabit, 3 hərəkətli iş sahəsi yaratmışıq. Layihədə hindlilər də işləyir".

Xatırladaq ki, TANAP-da SOCAR-ın 58%, "BOTAŞ"ın 30% və BP-nin 12% payı var.

# 2 minə yaxın mənzil tikiləcək

**Dövlət başçısının tapşırığına əsasən, ölkə vətəndaşlarının yaşayış sahələrinə olan ehtiyacını ödəmək, güzəştli şərtlərlə mənzilə sahib olmasını təmin etmək məqsədilə həyata keçirilən ilk layihənin icrası istiqamətində işlər davam etdirilir.**



İlkin olaraq Yasamal rayonu ərazisində salınacaq şəhəcik 2 minə yaxın mənzil tikiləcək.

Paytaxtın Yasamal rayonu, Xarici Dairəvi Avtomobil yolunun kənarında yerləşən bu ərazi vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə Prezident yanında Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən güzəştli mənzillərin inşası üçün seçilib. Vətəndaşların əlverişli şərtlərlə əldə edəcəyi mənzillərin yerləşəcəyi ərazinin sahəsi 11,6 hektardır.

Artıq çoxmənzilli binaların inşa olunacağı ilk yaşayış kompleksinin "Şəhərsalma əsaslandırılması"nın hazırlanması başa çatdırılıb. Tikintinin layihə-smeta sənədləri üzərində iş gedir. Bununla yanaşı, ötən qısa müddət ərzində ərazidə geoloji və mühəndis axtarış işlərinin aparılmasına başlanılıb. Eyni zamanda, çoxmənzilli binaların tikintisinə hazırlıq işləri çərçivəsində mühəndis-kommunikasiya təminatı üçün texniki şərtlər də alınıb.

İlkin hesablamalara görə, salınacaq şəhərcikdə 2 minə yaxın mənzil tikiləcək. Bu ərazinin seçilməsində rahat yaşayış üçün bir neçə mühüm məqam nəzərə alınıb. Şəhərin ekoloji cəhətdən təmiz, sağlam və əlverişli hissəsində yerləşən ərazinin yaxınlığında 5 hektara yaxın yaşıllıq zonasının olması isə onun ekoloji durumunu daha da yaxşılaşdırır. Bu ərazi həm də paytaxtın əsas iş yeri mərkəzlərinə yaxındır. İnsanların çox vaxt itirmədən iş yerlərinə çatması məqsədilə yeni şəhərciyin nəqliyyat sisteminin paytaxtın mövcud nəqliyyat şəbəkəsi ilə inteqrasiyası təmin ediləcək.

Şəhərcikdə çoxmənzilli binalarla yanaşı, insanların rahat yaşayışı üçün hər cür şəraitin yaradılması, normalara uyğun olaraq həyətlərin, yaşıllıq zolaqlarının, uşaq meydançalarının, vətəndaşların zəruri ehtiyaclarının ödənilməsini təmin etmək üçün məktəb, uşaq bağçası, məişət və xidmət obyektləri, həmçinin digər müvafiq sosial infrastrukturun yaradılması nəzərdə tutulur.

# Azərbaycanda dərman istehsalına sərmayə yatırmaq planlaşdırılır



İranın əczaçılıq üzrə "Təmin" investisiya şirkəti Azərbaycanda dərman istehsalı sahəsində sərmayə yatırmağı planlaşdırır.

Bunu Tehran bürosuna İran səhiyyə nazirinin müavini, Ərzaq və qida təşkilatının sədri Rəsul Dinarvənd deyib.

"Hazırda Azərbaycanda qeydiyyata alınmış dərmanlarımız var. Azərbaycanda əczaçılıq sahəsində sərmayə yatırmağa çalışırıq. "Təmin" əczaçılıq üzrə investisiya holdinqi Azərbaycanda sərmayə yatıracaq. Bu holdinqə bağlı olan "Darupexş" şirkəti hazırda Bakıda fəaliyyət göstərir", - deyə o vurğulayıb.

R. Dinarvənd bildirib ki, İranda 3 milyard dollar dəyərində dərman vasitələri istehsal olunur: "Bu sahədə 100 şirkət çalışır. Düşünürük ki, region ölkələrinin bazarlarında yer almaq üçün bu şirkətləri birləşdirmək lazımdır. Beləliklə bir neçə böyük şirkət yaranacaq və daha güclü fəaliyyət göstərəcək. Azərbaycan və Rusiya kimi ölkələrin bazarında olmaq üçün dərman istehsal edən şirkətlər daha çox sərmayə yatırmalıdır".

# Karbamid Zavodunun tikintisi işlərinin 40%-i tamamlanıb

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Sumqayıtda inşa olunan Karbamid Zavodunun tikintisi üzrə işlərin 40%-dən çox hissəsi tamamlanıb.

Bu barədə zavodun direktoru Xəyal Cəfərov məlumat verib: "Layihə üzrə həm əsaslı, həm də detallı mühəndislik işləri tamamlanıb. Avadanlıqların 96%-dən çox hissəsi artıq ölkədədir. Avadanlıqlar Amerika, Avropa və Asiyadan nüfuzlu şirkətlərindən alınıb".

X.Cəfərov xatırladıb ki, tikinti işləri 2017-ci ilin sonuna tamamlanacaq və sınaq testlərinə başlanacaq. Onun sözlərinə görə, 2018-ci ildə zavod SOCAR-a təhvil veriləcək.

Qeyd edək ki, Karbamid Zavodunun inşası layihəsi dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq edilmiş Azərbaycanda əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı (2008-2015-ci illər) çərçivəsində həyata keçirilir. Bu məqsədlə SOCAR-ın "Azərikimya" İstehsalat Birliyinin istifadəsində olan 24 hektar torpaq sahəsi ayrılıb və 2011-ci il dekabrın 19-da Prezident İlham Əliyevin iştirakı ilə zavodun təməlqoyma mərasimi keçirilib. 2013-cü il martın 13-də SOCAR və "Samsung Engineering Co. Ltd." (Cənubi Koreya) şirkəti arasında karbamid istehsalı müəssisəsinin inşası məqsədilə layihələndirmə, satınalma və tikinti müqaviləsi imzalanıb. Müqavilə çərçivəsində "Samsung Engineering" şirkəti zavodun tikintisini başa çatdırdıqdan sonra bütün lazımi sınaqları həyata keçirərək "açar təhvili" əsasında müəssisəni tam istifadəyə



hazır şəkildə Dövlət Neft Şirkətinə təhvil verəcək. Koreya şirkəti zavodun tikinti-quraşdırma işlərini aparacaq, müvafiq sınaqlar həyata keçirəcək və müəssisənin istismarı zamanı yarana biləcək problemlərin aradan qaldırılması məqsədilə işçilərə xüsusi treninqlər təşkil edəcək. Zavod ammonyak, maye və dənəvər karbamid istehsalı bölmələrindən ibarət olacaq, gündə 2 min ton karbamid istehsal edəcək.

# "PAŞA Həyat" son bir ildə yığımlarının həcmini kəskin artırıb

**Azərbaycanın ən iri sığorta şirkəti olan "PAŞA Həyat" 2016-cı ilin yanvar-avqust ayları üzrə ilkin hesabatını açıqlayıb.**




Şirkətin strateji direktoru İsrail Qarayevin "Marja"ya verdiyi məlumata görə, cari ilin yanvar-avqust aylarında "PAŞA Həyat" tərəfindən 55,982 mln. manat həcmində sığorta haqqı toplanılıb ki, bu da 2015-ci ilin müvafiq dövrünün göstəricisi ilə müqayisədə 43% çox olub.

İ.Qarayev bildirib ki, hesabat dövründə baş vermiş müxtəlif sığorta hadisələrinə görə "PAŞA Həyat" tərəfindən 14,495 mln. manat sığorta ödənişi verilib və nəticə etibarı ilə sığorta ödənişlərinin həcmi ötən ilin yanvar-avqust ayları ilə müqayisədə təxminən 2,1 dəfə artıb: "Bununla yanaşı, cari ilin sentyabr ayının 1-nə şirkətin ümumi aktivlərinin həcmi 160 mln. manata yaxın, nizamnamə kapitalı isə 40,250 mln. manat təşkil edib"

Qeyd edək ki, məcmu aktivlərinin həcminə görə "PAŞA Həyat" Azərbycanın ən iri sığorta şirkətidir.

Xatırladaq ki, "PAŞA Həyat" 2011-ci ilin fevral ayından fəaliyyət göstərir. Şirkət müştərilərə müxtəlif həyat sığortası məhsulları, o cümlədən "həyatın müddətli sığortası", "istehsalatda bədbəxt hadisələrdən icbari sığorta", "yığım tərkibli yaşam sığortası", "sağalmaz xəstəliklərdən sığorta" və digər könüllü həyat sığortası məhsulları təklif edir.

KİVDF

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

# TİKİNTİDƏ SAHİBKARLIĞIN ROLU ARTIR

**Uzun illərdir ki, dövlət sahibkarlığın inkişafına kömək göstərir, həm siyasi, həm metodoloji dəstək verir. İqtisadiyyat Nazirliyi bütün layihələr üzrə biznes planları hazırlayır və maliyyə dəstəyi verir. Son 12 il ərzində sahibkarlara güzəştli şərtlərlə 1 milyard 700 milyon manat kredit verilmişdir və bu ili nəzərə alsaq, bu, 2 milyard manat təşkil edir.**

**Hazırda qeyri-neft sektorunun inkişafında sahibkarların rolu böyükdür. Bu baxımdan son illərdə ölkədə tikinti sektorunun inkişaf etdirilməsi sayəsində bir sıra yeni istehsal obyektləri fəaliyyətə başlamışdır. Məhz bu dövrdə "Akkord Tikinti İnvestisiya Korporasiyası" Qaradağ rayonu ərazisində Mərmər Qranit zavodunun əsasını qoymağa müvəffəq olmuşdur. Yalnız respublikanın deyil, bütövlükdə regionun mərmər və qranit emalı üzrə ən böyük müəssisəsi sayılan Akkord Mərmər Qranit zavodunun açılışı olmuşdur. Mərmər Qranit zavodu yalnız Azərbaycanın deyil, bütövlükdə regionun mərmər və qranit emalı üzrə ən böyük müəssisəsidir.**



Ölkəmizdə qranit və mərmər məhsullarının istifadəsinə artan tələbat bu istehsal sahəsinin genişləndirilməsi zərurətini yaratmışdı. Bu məqsədlə "Akkord" Şirkətlər Qrupu tərəfindən genişmiqyaslı tikinti-yenidənqurma işləri həyata keçirilmiş, daha müasir avadanlıqla təchiz olunan və geniş istehsal imkanlarına malik zavod inşa edilmişdir. Zavodun tikilməsi və yenidən qurulmasına 19 milyon manat vəsait sərf olunub ki, bunun da 3,5 milyon manatını İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun güzəştli krediti və Şirkətlər Qrupunun sərmayəsi təşkil etmişdir.

2010-cu il avqustun 9-da Prezident İlham Əliyev Qaradağ rayonu ərazisində yerləşən "AKKORD" Mərmər-Qranit zavodunun açılış mərasimində iştirak etmişdir. Dövlətimizin başçısı əvvəlcə zavodun sərgi salonu ilə tanış olmuşdur. Burada ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin müxtəlif istehsal müəssisələrinin açılış mərasimlərində iştirakından bəhs edən fotostend də yaradılmışdır. Prezident burada qranit və mərmərdən hazırlanmış məhsullarilə tanish olmuşdur.

Qeyd edək ki, qranit-mərmər zavodunun Azərbaycanda 2 Aqlay yatağı, Türkiyədə Bej mərmər ocağı, Ukraynada isə qranit yataqları vardır. Zavodda məhsul istehsalında, həmçinin dünyanın bir sıra ölkələrindən gətirilən müxtəlif növ mərmər və qranit bloklardan, oniks və travertendən istifadə edilir.

"Akkord Mərmər Qranit" MMC 2010-cu ildən "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC-nin tərkibində, 2014-cü ilin oktyabr ayından isə müstəqil olaraq fəaliyyətdədir. Müəssisə İtaliya, İspaniya, Brazilya, Norveç, Rusiya, Türkiyə, İran, Çin, Hindistan və başqa ölkələrdən gətirilmiş mərmər, qranit və travertin daşlarından hazırlanmış hər növ və ölçüdə məhsulları təqdim edir. Keyfiyyət siyasətini qoruyan müəssisədə yerli xammal kimi aqlay daşından hazırlanan fiqurlar və Daşkəsən mərməri istehsal olunur. Müəssisə Avropanın qabaqcıl texnologiyaları ilə təchiz olunmuşdur və sifarişlər əsasında dünyanın hər bir nöqtəsindən gətirilən təbii daşları istehsal etmək gücünə malikdir. Müəssisə yolkənarı bordyurlar, kub daşlar, döşəmə və üzlük üçün plitələr, pəncərəaltılar, və pilləkənlik üçün müxtəlif növ mərmər, qranit və travertindən hazırlanmış məhsulları təklif edir. Müəssisədə yerli xammal kimi aqlay daşından hazırlanan fiqurlar və Daşkəsən mərməri istehsal olunur.

Zavodda emal edilən məhsullar təkcə yerli bazar və şirkətin öz tələbatı üçün deyil, eyni zamanda ixrac üçün də nəzərdə tutulub. Müəssisə müasir avadanlıqlarla təchiz olunmuş və geniş istehsal imkanlarına malik 18 min kv.metr qapalı sahəyə, ümumilikdə isə 80 min kv.metr sahəyə malikdir. Ən son dünya standartlarına cavab verən İtaliya və Türkiyədən gətirilmiş avadanlıqlarla təchiz edilmiş müəssisədə mərmər, travertin və aqlay bloklarının kəsilməsi, cilalanması, bölünməsi və yandırılması (qranit listlərin) qabaqcıl texnologiyalar əsasında həyata keçirilməkdədir.



Bu gün müştərilərə seçim imkanı üçün 60 növdə mərmər, 40 növdə qranit, 6 növdə trevertin və aqlay təklif edilir.

Müştərilərin rahatlığı üçün 2 sərgi salonu onların ixtiyarına verilib. Keyfiyyət siyasətini qoruyan müəssisə peşəkar xidməti, keyfiyyətli və standartın hər bir tələbinə cavab verən məhsulları ilə bu sektorda olan bütün rəqiblərindən seçilməyi bacarıb. Hal –hazırda müəssisənin aylıq istehsal gücü 60000 kv.m-lə, illik istehsal gücü isə yetərincə böyük layihələrin qısa zaman ərzində başa çatdırılmasına imkan verir. 2010-cu ildən aparıcı Satış Mərkəzi olaraq zavodun ərazisində sahəsi 860 kv.m olan 3 mərtəbəli Sərgi salonu inşa edilmişdir. 2015–ci ilin əvvəlində daha iki Sərgi salonu və satış mərkəzi müştəriərin ixtiyarına verilmişdir. Şirkət nüfuzunu yüksək qiymətləndirir və uzunmüddətli əməkdaşlıq etmək niyyətindədir, buna görə də alınan məhsulların keyfiyyətinə və qiymətinə ciddi yanaşır. Akkord Mərmər Qranit MMC ilə ən böyük tikinti şirkətləri və fiziki şəxslər əməkdaşlıq edirlər. Bu Akkord Mərmər Qranit MMC-nin bütün əməkdaşlarının yüksək peşəkarlığının və keyfiyyətli işinin əsas göstəricisidir.

İndiyə qədər Akkord Mərmər Qranit MMC-nin istehsal etdiyi məhsullar bir çox layihələrin tikintisində istifadə edilmişdir. Bu layihələr sırasında "Ağ şəhər" "Qələbə Meydanı Tunel Tipli Yol Qovşağı Layihəsi" (4 ədəd piyada keçidi), "Avesta Concern" "Park AZURE", "Akkord Xırdalan Metal Konstruksiya", "Kristal Abşeron" MTK və"SMTS" MMC-ni göstərmək olar.

Zavodda ən müasir dəzgahlardan istifadə olunur. Kompüterlərin köməkliyi ilə idarə olunan avadanlıqlarda yüksək keyfiyyətli məhsullar istehsal olunur.

Şirkət məhsulların çeşidinin yenilənməsi və müştəri xidmətinin təkmilləşdirilməsi istiqamətində daima çalışır. Hər bir müştəriyə fərdi yanaşılır və onlarla qarışılıqlı əməkdaşlıq etmək üçün optimal şərait yaratmağa və qarşılamağa hazırıdır. "Hər bir sifarişə yüksək məsuliyyət" – bu şərt rəqabətqabiliyyətli mərmər-qranit sektorunda öz məhsulları ilə insanların etibarını qazanmış "Akkord Mərmər Qranit" MMC-nin əsas iş prinsipidir. Şirkət məhsulların çeşidinin tez-tez yenilənməsi və müştəri xidmətinin təkmilləşdirilməsi istiqamətində daima çalışır.

2015-ci ildə Qazaxıstanın Almatı şəhərində Atakent Beynəlxalq Sərgi Mərkəzində Kazbuild-2015 Tikinti Sərgisi keçirilmişdir. «Akkord Mərmər Qranit» MMC sərgidə Brillone, Marmara, Emprador Light, Red Travertine, Santiaqo Red və s. kimi təbii daşlar nümayiş etdirilmişdir. Onu da qeyd etrmek lazimdir ki, sərgidə şirkət tərəfindən nümayiş etdirilən məhsul və xidmətlər sərgi təşkilatçılarının və ziyarətçilərinin böyük marağına səbəb olmuşdur.

Bu gün qeyri-neft sektorunun sürətli yüksəlişi həm də daxili investisiyaların həcminin artımında özünü göstərir.

*Nailə CABBAROVA*

# Tikinti sektorunda aparılan irimiqyaslı işlər davamlı inkişaf imkanlarını artırır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkədə son 10 ildə baş verən prosesləri xarakterizə edərək demişdir: "Azərbaycan xalqı öz taleyinin sahibidir və Azərbaycan heç vaxt tarixdə bu qədər güclü olmamışdır. Heç vaxt müstəqilliyimiz bu qədər möhkəm olmamışdır. Biz hamımız bundan sonra da çalışmalıyıq və çalışacağıq ki, ölkəmizi inkişaf etdirək, müstəqilliyimizi əbədi, dönməz edək".**

Azərbaycan dövlətinin uğurları o qədər miqyaslı, əzəmətlidir ki, bu nailiyyətlərə çoxsaylı dövlətlər neçə-neçə onilliklər nail ola bilməyiblər. Belə bir dinamik inkişafın ən başlıca səbəbi odur ki, Azərbaycan dövləti müstəqil, milli maraqlara cavab verən siyasət yeridir, özünün davamlı və keyfiyyətli inkişafını təmin etmək, xaricdən asılılığa yol verməmək, malik olduğu insan kapitalı, zəngin təbii resurslardan səmərəli istifadə etməklə inkişaf etmiş ölkələr səviyyəsinə yüksəlmək siyasəti yeridir.

1994-cü il 20 sentyabrda Azərbaycan dövləti müstəqilliyimizin, iqtisadiyyatımızın gələcək inkişafı üçün həlledici amil olan "Əsrin müqaviləsi"ni imzaladı.

Həmin mərasimdə ulu öndər Heydər Əliyevin çıxışından bir fikri qeyd etmək istəyirik: "Biz belə bir addım atmaqla Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Biz müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq. Biz bu müqaviləni imzalamaqla dünyaya bir daha nümayiş etdiririk ki, müstəqil Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir. Azərbaycanda demokratik prinsiplərin bərqərar olması və inkişaf etməsi üçün geniş meydan açılmışdır. Azərbaycan Respublikası bazar iqtisadiyyatı yolu ilə getmək əzmindədir. Bu müqavilənin imzalanması bazar iqtisadiyyatının Azərbaycanda həyata keçirilməsi üçün ilk böyük addımdır. Biz bu müqaviləni imzalamaqla xarici ölkələrdən Azərbaycana investisiya qoyulması üçün böyük yol açırıq, digər sahələrdə çalışan şirkətlərin də Azərbaycanda fəaliyyət göstərməsi üçün zəmin yaradırıq, müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatında və ictimai-siyasi həyatında hökm sürən sabitliyi dünyaya bir daha nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla müqavilədə iştirak edən şirkətlərin mənsub olduqları böyük ölkələrlə - Amerika Birləşmiş Ştatları, Rusiya, İngiltərə, Türkiyə, Norveç kimi dövlətlərlə dostluq əlaqələrinin, iqtisadi əməkdaşlığın və ümumiyyətlə, bütün sahələrdə əlaqələrin möhkəmlənəcəyinə ümid bəsləyirik". Sonra ölkəmizə güclü investisiya axını başladı ki, bunun da 85-90 faizi neft sektorunun payına düşürdü. Bu gün dövlətin əldə etdiyi uğurlar, ölkəmizin beynəlxalq aləmdə qazandığı nüfuz bir daha ulu öndər Heydər Əliyevin uzaqgörənliyini, müstəqilliyimizin dönməz və əbədi olduğunu sübut edir. Neft strategiyasının müvəffəqiyyətlə reallaşması iqtisadiyyatın digər sahələrinin inkişafı üçün əlverişli şərait yaratdı.

**Ölkə iqtisadiyyatının inkişafına bir çox amillər təsir edir ki, bunlardan da biri iqtisadi sahəyə ayrılan əsaslı vəsait qoyuluşunun artması ilə bilavasitə əlaqədardır. Son 15 ildə Azərbaycan iqtisadiyyatına ayrılan əsaslı vəsait qoyuluşunun həcmi 100 milyard manatdan çox olmuşdur. Nəticə etibarilə ölkə iqtisadiyyatının quruluşunda əhəmiyyətli dəyişikliklər əldə edilmiş, yeni zavod və fabriklər işə salınmış, geniş miqyasda sosial-mədəni obyektlər istifadəyə verilmiş, irimiqyaslı infrastruktur layihələri həyata keçirilmişdir.**

Bu gün inşaat kompleksi Azərbaycan iqtisadiyyatının mühüm bir sahəsinə çevrilmişdir. Müstəqillik dövründə inşaat komplekinsdə ilk növbədə azad bazar münasibətlərinin prinsipləri geniş miqyasda tətbiq edilmiş, irimiqyaslı özəlləşmə tədbirləri aparılmışdır. Keçmiş Sovetlər sistemində inşaat kompleksinin, demək olar ki, 90 faizdən çoxu dövlət mülkiyyətinin, qalanı isə kolxoz-kooperativ mülkiyyətinin payına düşürdü. Hazırda azad bazar iqtisadiyyatı şəraitində inşaat kompleksinin mülkiyyətinin xeyli hissəsi özəl sektorun payına düşür və bu meyil ildən-ilə güclənir.

Əgər 2000-2004-cü illərdə özəl sektorun payı əsaslı vəsait qoyuluşunun 3,1 milyard manatını təşkil edirdisə, 2011-2014-cü illərdə bu rəqəm 22,1 milyard manat olmuş, yəni 7 dəfə artmışdır. Təkcə 2014-cü ildə özəl sektor tərəfindən iqtisadiyyata 4,1 milyard manat məbləğində əsaslı vəsait yönəldilmişdir ki, bu da 2005-2007-ci illər üzrə müvafiq göstəricilərdən 1,2 dəfə çox olmuşdur. Görülən tədbirlər sayəsində əsaslı tikintidə xeyli mütərəqqi dəyişikliklər baş vermiş, onun texniki-iqtisadi göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. 2005-2014-cü illərdə tikinti işlərinin həcmi 5,5 dəfə artmış, 80 milyard manatlıq əsas fondlar istifadəyə verilmişdir ki, onun da 47 milyard manatı özəl sektorun (təqribən 59%), 33 milyard manatı isə dövlətin payına (41%) düşmüşdür.

Son 10 ildə əsas kapitala yönəlmiş daxili vəsaitlərin həcmi 6 dəfədən çox artmışdır ki, bu da ölkə iqtisadiyyatının sürətli inkişafının nəticəsidir. Ümumilikdə, 2004-2014-cü illərdə daxili investisiyalar 14,6 dəfə, qeyri-neft sektoruna investisiyalar 12,9 dəfə artmış, regionlara bütün mənbələr hesabına 50,7 milyard manat vəsait yönəldilmişdir. Daxili vəsaitlər hesabına respublikanın şəhər və rayonlarında çoxsaylı özəl sənaye müəssisələri, yaşayış kompleksləri, məktəb, səhiyyə, idman kompleksləri, yeni yollar, digər infrastruktur obyektləri işə salınmışdır. Eyni zamanda, qlobal dünya iqtisadiyyatında baş verən ciddi sarsıntılar dünya bazarında neftin bir neçə dəfə ucuzlaşması və bununla əlaqədar olaraq neft gəlirlərinin azalması şəraitində ölkəyə xarici kapitalın axmasını əhəmiyyətli dərəcədə gerçəkləşdirir.

Bu gün tikinti müəssisələrində 100 min nəfərdən çox işçi çalışır ki, onun da təxminən 90 faizi iri müəssisələrin payına düşür. Son zamanlarda investisiya xərclərinin azalması ilə əlaqədar tikinti işlərində müəyyən azalmalar müşahidə edilir. Dövlət başçısı cənab İ.Əliyev 2016-cı ildə ölkə iqtisadiyyatının 6 aylıq fəaliyyəti ilə bağlı keçirdiyi müşavirədə işçilərin ixtisarına həssaslıqla yanaşmağı bir daha vurğulamışdır. Dövlət başçısının bu mövqeyi, hesab edirik ki, bir daha prezidentimizin insanlara qayğısının və işçilərin ixtisarına həssaslıqla yanaşmağının bariz nümunəsidir.



*Ağalar VƏLİYEV,*
*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini, "Azəraqrartikinti" ASC-nin müşahidə şurasının sədri*

**Bu gün Azərbaycan iqtisadiyyatına Britaniya, ABŞ, Yaponiya, Norveç, Fransa, Cənubi Koreya, Türkiyə, Almaniya, Səudiyyə Ərəbistanı, İran, Rusiya, Çexiya kimi ölkələr sərmayə qoyur. Bu ölkələrin coğrafiyası ildən-ilə genişlənir. Eyni zamanda, Azərbaycan şirkətləri Türkiyə, Gürcüstan, Rusiya, Ukrayna, Qazaxıstan və s. iqtisadiyyatına sərmayə qoyur, birgə iş fəaliyyəti qururlar. Heç şübhəsiz ki, hər iki tərəfin maraqlarına cavab verən bu kimi əlaqələr bundan sonra da inkişaf edəcəkdir. Dövlət başçısı onu da vacib hesab edir ki, xarici investisiyaların gələcəkdə digər sahələrə, xüsusilə də qeyri-neft sektoruna, müasir texnologiyalara, ixracyönümlü sahələrə, aqrar sektora qoyulması diqqət mərkəzində saxlanılmalıdır.**

Azərbaycanın inşaat kompleksinin daha sürətli və səmərəli inkişaf etdirilməsi imkanları çox böyükdür və onların reallaşdırılması üçün dövlət başçısı İlham Əliyev bütün səylərin səfərbər edilməsini vacib sayır. Odur ki, son vaxtlar bu sahədə özünü göstərən fəallığın azalmasına son qoymaq, kompleksdə əsaslı dönüşü təmin etmək üçün tam mənada bütün tədbirləri görmək lazımdır.

Əsaslı tikintinin yaxşılaşdırılmasına onun sahə strukturu bilavasitə təsir edir. Əsaslı vəsait qoyuluşunun sahə strukturu hər bir dövrdə iqtisadi və sosial inkişafın vəzifələri və istiqamətləri ilə müəyyən edilir.

2014-cü ilin məlumatına görə, daxili investisiyaların 25-27 faizi sənayeyə, o cümlədən mədənçıxarma, emal sənayesinə, elektrik enerjisi, qaz istehsalı, bölüşdürülməsi, su təchizatına və digər sahələrə yönəldilmişdir. Azərbaycan dövləti tikinti işlərinin ildən-ilə genişləndirilməsi məqsədilə bu sahəyə ayrılan vəsaitlərin artırılması və onlardan səmərəli istifadəsi üçün ölkədə əlverişli investisiya mühitini yaratmağa nail olmuşdur.

Dövlət başçısı İlham Əliyevin qeyri-neft sektorunun üstün inkişafı istiqamətində atdığı cəsarətli addımlar öz müsbət nəticəsini verir. Naxçıvan Muxtar Respublikasında, Sumqayıt, Gəncə, Mingəçevir, Neftçala, Masallı və digər şəhər və rayonlarda sənaye məhəllələri, texnoparklar yaradılır, iri kimya, maşınqayırma, yüngül sənaye obyektlərinin istifadəyə verilməsi ilə bağlı intensiv işlər görülür. Son illər ərzində innovasiya xarakterli texnologiyaların tətbiqi davam etdirilmiş, yeni müəssisələr yaradılmış, müəssisələrinin istehsal potensialı artırılmış, ölkə sənayesində 2,7 dəfə artım qeydə alınmışdır.

Bu məsələyə toxunan dövlət başçısı İlham Əliyev deyir: "Mən iri layihələr arasında, əlbəttə ki, Sumqayıt Kimya Sənaye Parkında həyata keçirilən layihələri qeyd etmək istəyirəm. Onların arasında SOCAR Polimer kompleksinin tikintisi xüsusi yer tutur. Buraya böyük investisiya - təqribən 700 milyon dollardan çox sərmayə qoyulur. İki ildən sonra artıq bu müəssisə hazır məhsul istehsal edəcək. İdxaldan asılılıq tamamilə aradan götürüləcək və böyük ixrac potensialı yaranacaqdır. Gələcək fəaliyyətimiz üçün bu, əsas istiqamət, prioritet olmalıdır. İdxaldan maksimum dərəcədə asılılığımızı aradan götürmək, ixrac potensialımızı artırmaq və bununla paralel olaraq, ixrac bazarlarının araşdırılması və müəyyən edilməsi istiqamətində də ciddi işlər aparılmalıdır.

**Eyni zamanda, 2018-ci ildə azot gübrələri zavodunun istismara verilməsi planlaşdırılır. Bu da gübrələrə olan tələbatımızı tam təmin edəcək, idxala artıq ehtiyac olmayacaq və böyük həcmdə ixrac potensialı yaranacaqdır. Burada da üstünlük ondan ibarətdir ki, bu məhsulların satışı ilə bağlı heç bir problem olmayacaq".**

Tikinti sektorunun inkişafını xarakterizə edən göstıricilərdən biri ölkədə mənzil tikintisinin aparılmasıdır. Son 10 ildə respublikamızda mənzil tikintisi də geniş vüsət almışdır. Təkcə 2010-2014-cü illərdə ümumi sahəsi 10,8 milyon kvm yaşayış sahəsi istifadəyə verilmişdir. İstifadəyə verilən yaşayış evlərinin 90%-i özəl sektorun payına düşmüşdür. Əhalinin dinamik artan pul gəlirləri hesabına tikilən yaşayış evlərinin sayı da artmağa meyil edir. 2010-2014-cü illərdə istifadəyə verilən evlərin 80%-dən çoxu əhalinin şəxsi vəsaitləri hesabına olmuşdur. Bununla belə Azərbaycan dövlətinin sosial siyasətinin ali məqsədlərindən biri də ondan ibarətdir ki, əhalinin mənzillə təminatı ildən-ilə yaxşılaşsın, aztəminatlı ailələr əlverişli qiymətlərlə yeni mənzillərlə təmin edilsin. Bu problemin uğurlu həlli üçün dövlət başçısının sərəncamı ilə yeni bir qurum yaradılıb ki, onun da yaxın vaxtlarda fəaliyyətə başlaması üçün bütün hazırlıq işləri aparılır. Aztəminatlı ailələrin mənzil şəraitinin yaxşılaşmasını ən vacib problemlərdən biri hesab edən Prezident İ.Əliyev Nazirlər Kabinetinin bu yaxınlarda keçirilən iclasında demişdir: "Bu il biz sosial mənzillərin inşasına başlamaq fikrindəyik. Mənzil İnşaatı Dövlət Agentliyi - MİDA yaradılıb. Onun əsas vəzifəsi aztəminatlı ailələrə çox əlverişli şərtlərlə mənzillərin verilməsidir. Eyni zamanda, bu proses kütləvi xarakter alandan sonra bunun inşaat və tikinti materialları istehsalı sektorlarına və beləliklə, sənaye potensialımıza çox müsbət təsiri olacaq".



Dövlət başçısı İlham Əliyevin bu fikirləri, heç şübhəsiz ki, sosial mənzil tikintisi proqramının uğurla həyata keçirilməsi inşaat kompleksinə də yeni nəfəs verəcək, minlərlə iş yerləri yaradılacaq, tikintidə ixtisaslaşdırılmış müəssisələrin texniki-iqtisadi göstəriciləri yaxşılaşacaq, inşaatla əlaqədar olan sahələrin inkişaf imkanları, xüsusilə tikinti materialları istehsalı daha sürətlə artacaqdır. Ən başlıcası, on minlərlə ailə yeni mənzillərində sevinc dolu illər yaşayacaq.

Son illər respublikamızın şəhər və rayonlarında yüzlərlə müasir binalar, sənaye müəssisələri, yaşayış məhəllələri, turizm, idman kompleksləri, otellər tikilib istifadəyə verilmişdir. Regional İnkişaf Dövlət Proqramlarının icrası çərçivəsində son 12 il ərzində 10 min kilometr respublika və yerli əhəmiyyətli avtomobil yolları tikilmiş və ya təmir olunmuş, regionlarda 310-dan çox yeni körpü və yol ötürücüsü tikilmiş və ya təmir edilmiş, Naxçıvan, Gəncə, Lənkəran, Zaqatala, Qəbələ və Yevlax şəhərlərində hava limanları istifadəyə verilmişdir.

**Bu gün Azərbaycanın tranzit potensialının daha da artırılması istiqamətində, o cümlədən Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin fəaliyyəti, Bakı-Tbilisi-Qars dəmir yolunun, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə magistral yolların tikintisi layihələri uğurla davam etdirilir ki, bütün bunlar Azərbaycanın beynəlxalq aləmdə siyasi mövqeyinin, iqtisadi qüdrətinin artması üçün müstəsna əhəmiyyət kəsb edir.**

İnşaatçılar qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı Prezident İlham Əliyevin müəyyən etdiyi tədbirlərin həyata keçirilməsində də fəal iştirak edirlər. Bu gün ölkəmizdə bir dənə də olsun çadır şəhərciyi qalmamış, bu insanların hamısı müasir tipli qəsəbələrə köçürül-müşlər. Tikinti sektorunun işçiləri 2001-2016-cı illərdə 30 mindən çox ailə və ya 140 min nəfərdən çox daimi məskunlaşmamış qaçqın və məcburi köçkün üçün 80 qəsəbə, hündürmərtəbəli binalardan ibarət məhəllə və fərdi evlər tikmişlər. Ümumilikdə, qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həlli məqsədilə 1993-2016-cı illərdə 6,0 milyard dollardan çox vəsait xərclənmişdir.

Hazırda respublikada 416-420 ixtisaslaşdırılmış tikinti işləri aparan müəssisə fəaliyyət göstərir ki, onlardan 112-si iri, 304-ü isə kiçik müəssisə hesab edilir. Öz gücləri ilə yerinə yetirilmiş işlərin 95%-i iri, 5%-i isə kiçik müəssisələrin payına düşmüşdür. Tikinti müəssisələrində maliyyə nəticələri ildən-ilə yaxşılaşır. 2015-ci ildə tikinti müəssisələri üzrə cəmi mənfəət 500 milyon manat, orta aylıq əmək haqqı isə 626,9 manat təşkil etmişdir. Müqayisə üçün qeyd edək ki, 2005-ci ildə bu rəqəmlər 92,9 milyon manat və 237,6 manat olmuşdur.

Əlbəttə, iri tikinti şirkətləri texnika, professional işçi qüvvəsi ilə daha yaxşı təmin olunur, ixtisaslaşma, müasir texnologiyalardan istifadə etmək, məhsul vahidinə düşən istehsal xərclərini azaltmaq imkanlarına malikdirlər. Bununla yanaşı, inşaat kompleksində kiçik sahibkarlığın inkişaf imkanları böyükdür. Tikintidə kiçik sahibkarlıq ölkədə turizmin inkişafı, istifadəyə verilmiş yaşayış binalarına, ofislərə ayrı-ayrı xidmət növlərinin göstərilməsi ilə bağlı işlərin görülməsində daha fəal iştirak edə bilər.

**Prezident İlham Əliyevin müəyyən etdiyi dövlət investisiya siyasətində aşağıdakı əsas istiqamətlər xüsusi olaraq vurğulanır: investisiyaların qeyri-neft sektorunun və regionların sürətli və tarazlı inkişafına yönəldilməsi; ölkənin investisiya siyasətinin müasir inkişaf meyillərinə, davamlı və keyfiyyətli inkişaf strategiyasına uyğun olaraq müəyyənləşdirilməsi; ölkədə investisiya fəaliyyətinin sosial istiqamətinin daha da gücləndirilməsi, insan kapitalına qoyulan investisiyaların prioritetliyinin təmin edilməsi; nanotexnologiyalar və azkarbonlu istehsal sahəsinə dövlət investisiyalarının qoyuluşunun ön plana çəkilməsi; iqtisadiyyatın aparıcı sahələrinə, o cümlədən ixracyönümlü və əlavə dəyərin xüsusi çəkisi yüksək olan sahələrdə yerli və xarici investisiyaların cəlb edilməsi məqsədilə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi.**

Göründüyü kimi, qarşıdakı illərdə real sektorun daha sürətli inkişafı, idxaldan asılılığın azaldılması, bir sıra sənaye, tikinti, ərzaq məhsullarının daxili istehsal hesabına ödənilməsi, müasir sənaye xidmət müəssisələrinin tikilib istifadəyə verilməsi inşaat kompleksinin aparıcı istiqamətləri olacaqdır. Bununla əlaqədar olaraq 50 ilə yaxın fəaliyyət göstərən Azəraqrar tikinti səhmdar cəmiyyətinin kollektivi ölkəmizin iqtisadi inkişafı üçün son dərəcə vacib olan bu işlərdə əzmkarlıqla çalışmağa hazırdırlar.

Fəaliyyət göstərdiyi yarım əsrdə "Azəraqrartikinti" Səhmdar Cəmiyyəti tərəfindən respublikamızın bütün bölgələrində - şəhər və rayonlarında, əksər kəndlərində müxtəlif təyinatlı kənd təsərrüfatı obyektləri, təhsil, səhiyyə və sosial obyektlər, yaşayış evləri, ictimai binalar və sair obyektlər inşa olunmuşdur. "Azəraqrartikinti" Səhmdar Cəmiyyəti icra etdiyi müqavilələrin həcminə və mütrəkkəbliyinə görə respublikada ön sıralarda olan tikinti təşkilatlarından biridir. Cəmiyyətlə yüksək ixtisaslı kadr potensialı cəmləşmişdir. Onun icra aparatında və filiallarında öz peşəsinin vurğunu olan yüzlərlə yüksək ixtisaslı mühəndislər, memarlar və digər peşə sahibləri çalışırlar. Məhz onların gərgin əmək və səylərinin nəticəsidir ki, son illər "Azəraqrartikinti" Səhmdar Cəmiyyətinin fəaliyyət dairəsi genişlənmişdir – artıq kollektiv daha mürəkkəb və daha unikal obyektlər üzrə müxtəlif növ işləri yerinə yetirir və bu sahədə uğurlar davam etməkdədir.

"Azəraqrartikinti" Səhmdar Cəmiyyəti respublikanın tikinti kompleksində öz dəst-xətti və xüsusi çəkisi olan respublika əhəmiyyətli təşkilatlardan biridir. Səhmdar Cəmiyyət respublikada aparılan genişmiqyaslı, tikinti, quraşdırma, yenidənqurma işlərində yaxından iştirak edir. Xalqımızın ümummilli lideri Heydər Əliyev və ölkə prezidenti cənab İlham Əliyev dəfələrlə "Azəraqrartikinti" Səhmdar Cəmiyyətinin inşa etdiyi obyektlərdə olmuş, inşaatçılarla görüşlərdə onların əməyini yüksək qiymətləndirərək öz tövsiyələrini bildirmişlər. Son bir neçə ildə "Azəraqrartikinti" Səhmdar Cəmiyyəti tərəfindən Heydər Əliyev Fondunun, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Azərbaycan Respublikası Ərazilərin Bərpası və Yenidənqurulması üzrə Agentliyinin, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin, digər sifarişçilərin xətti ilə xeyli sayda müqavilə icra olunaraq başa çatdırılmış, yaxud icra olunmaqdadır. Səhmdar Cəmiyyətin əsas məqsədi inşaat sahəsi üzrə dünyanın qabaqcıl ölkələrinin ən mütərəqqi və qabaqcıl texnologiyalarını, daha müasir material və avadanlıqlarını iş prosesində tətbiq etmək, milli memarlıq ənənələrini qorumaqla estetik cəhətdən daha gözəl və baxımlı layihələri həyata keçirmək, bununla da müstəqil Azərbaycanımızın günü-gündən daha da gözəlləşməsinə öz layiqli töhfəsini verməkdir.

Respublikamızın inşaat kompleksində aparılan tikinti işlərinin getdikcə daha geniş miqyasda sənaye təməli üzərinə keçirilməsi, tikinti proseslərinin fasiləsiz konveyerə, binaların və qurğuların hazır konstruksiyalardan və hissələrdən mexanikləşdirilmiş qaydada quraşdırılan konveyerə çevrilməsi, maşın parkından daha səmərəli istifadə olunması, istehsal proseslərinin mexanikləşdirilməsi və kompleks mexanikləşdirilməsi səviyyəsinin yüksəldilməsi qarşıda duran vəzifələrdir.

**Onu da qeyd etməliyik ki, müasir tələblər baxımından inşaat kompleksinin işçi qüvvəsi ilə, xüsusən ixtisaslı işçilərlə daha yaxşı təmin edilməsinə ciddi ehtiyac vardır. Ona görə də Dövlət başçısı İlham Əliyevin Təhsil Nazirliyinin yanında peşə-texniki təhsil agentliyinin yaradılması barədə göstərişləri tikinti sektorunun da ixtisaslı işçilərlə təmin edilməsinə müsbət təsir edəcəkdir.**

Azad bazar münasibətlərinin bərqərar olduğu, əsaslı tikintidə görülən işlərin həcmində özəl sektorun xüsusi çəkisinin artdığı bir şəraitdə hər bir şirkət, sahibkar çalışır ki, tikdiyi obyekt vaxtında istifadəyə verilsin, qoyulan sərmayə mənfəət gətirsin, milli iqtisadiyyatın inkişafına dəstək olsun. Qeyd edim ki, inşaat kompleksində bu cür yanaşma üstünlük təşkil edir və son 12 ildə dövlət başçısının bilavasitə diqqət mərkəzində olan müxtəlif təyinatlı obyektlər vaxtında, yüksək keyfiyyətlə tikilib istifadəyə verilmişdir.

Bu müddət ərzində innovasiya xarakterli texnologiyaların tətbiqi davam etdirilmiş, yeni müəssisələr yaradılmış, müəssisələrinin istehsal potensialı artırılmış, ölkə sənayesində 2,7 dəfə artım qeydə alınmışdır. Sənaye məhsulunun ümumi həcmində qeyri-dövlət müəssisələrinin məhsulunun payı 2003-cü ildə 56,8 faiz, hazırda isə 81,4 faiz təşkil edir. Bütün bunlar sənayedə işgüzar fəallığın artmasına, yeni iş yerlərinin açılmasına, kiçik sahibkarlığın inkişafına güclü təkan vermişdir.

**Ötən müddətdə Bakı ilə yanaşı, regionlarda da turizm komplekslərinin, otellərin, istirahət mərkəzlərinin istifadəyə verilməsi turizmin inkişafına, əhalinin istirahətinə geniş imkanlar yaratmışdır. Son 10 ildə 14-ü regionlarda olmaqla, 35 beş ulduzlu otel istifadəyə verilmişdir və bu istiqamətdə işlər uğurla davam etdirilir.**

**Son illərdə inkişaf edən infrastruktur sahələrindən biri də nəqliyyat sektorudur ki, bu sahəyə davamlı və irihəcmli investisiyaların yönəldilməsi nəticəsində nəqliyyatın hərəkət heyətinin yeniləşməsi, körpülərin tikilməsi, yeni avtomobil yollarının çəkilişi, yenidən qurulması və s. işlər davam etdirilmiş, strateji əhəmiyyətli layihələrin səmərəli fəaliyyəti sahənin inkişafına öz müsbət təsirini göstərmiş, ümumilikdə bu sahədə 2,5 dəfə artıma nail olunmuşdur.**

Regional İnkişaf Dövlət Proqramlarının icrası çərçivəsində son 12 il ərzində 10 min kilometr respublika və yerli əhəmiyyətli avtomobil yolları tikilmiş və ya təmir olunmuş, regionlarda 310-dan çox yeni körpü və yol ötürücüsü tikilmiş və ya təmir edilmiş, Naxçıvan, Gəncə, Lənkəran, Zaqatala, Qəbələ və Yevlax şəhərlərində hava limanları istifadəyə verilmişdir. Bakı şəhərində Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi yaradılmışdır.

Bununla yanaşı, ölkənin tranzit potensialının reallaşdırılması istiqamətində tədbirlər, o cümlədən Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin fəaliyyəti, Bakı-Tbilisi-Qars dəmir yolunun, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə magistral yolların tikintisi layihələri həyata keçirilir.

Hazırda "Neftsiz dövrün" formalaşması və inkişafı istiqamətində uğurlu addımlar atılır. Qeyri-neft sənayesinin üstün inkişafına xidmət edən zavod və fabriklər işə salınır, aqrar sektorun potensiallığından daha səmərəli istifadə olunması məqsədilə ixtisaslaşma, iri təsərrüfatların yaradılması, əsassız istifadə olunmayan torpaqların təsərrüfat dövriyyəsinə cəlb edilməsi, infrastruktur və sosial layihələrin vaxtında icrası ilə bağlı tədbirlər geniş vüsət alır. Bütün bu müsbət dəyişikliklər, heç şübhəsiz ki, 2016-cı ildə sosial iqtisadi inkişafla bağlı nəzərdə tutulmuş məqsəd və vəzifələrin uğurla yerinə yetirilməsini təmin edəcək, ölkəmizin davamlı inkişaf imkanlarını daha da artıracaqdır.

# Əsas məqsəd daha işlək və mütərəqqi idarəetmə mexanizminin tətbiq olunmasıdır

*Müsahibimiz Vergilər Nazirliyinin Ərazi vergi orqanları ilə iş üzrə Baş İdarəsinin rəisi Elçin Bəylərovdur*



**- Elçin müəllim, Ərazi vergi orqanları ilə iş üzrə Baş İdarə Vergilər Nazirliyinin yeni struktur vahidlərindəndir. Bu qurumun yaradılması hansı zərurətdən irəli gəldi?**

- Ölkəmizdə yeni iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi, eləcə də sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin yaradılması istiqamətində atılan addımların tərkib hissəsi olaraq, vergi sistemində də geniş islahatlar aparılır. Ərazi vergi orqanları ilə iş üzrə Baş İdarə vergi nəzarətinin və vergitutma bazasının genişləndirilməsi, vergi daxilolmalarının artırılması, xüsusilə də regionların daim diqqət mərkəzində olması nəzərə alınaraq yaradılıb. Bu qurum ərazi vergi orqanlarının fəaliyyətinə nəzarətin səmərəliliyinin artırılmasını, vergilərin tam həcmdə və vaxtında ödənilməsini təmin edəcək.

Baş İdarənin əsas funksiyaları dövlət büdcəsində ərazi vergi orqanları üzrə müəyyən olunmuş proqnoz tapşırıqlarının icrası ilə əlaqədar nazirliyin digər funksional idarələri ilə birlikdə dövlət büdcəsinə vergi yığımını təşkil etmək, nəzarət işlərini həyata keçirmək, eləcə də ərazi vergi orqanlarının yerlərdə digər dövlət qurumları ilə işlərinin düzgün əlaqələndirilməsini təmin etməkdir.

**- Vergilər Nazirliyində aparılan struktur dəyişiklikləri ilə əlaqədar ərazi vergi orqanlarının işində nə dəyişib?**

- Baş İdarənin qarşısında duran əsas məqsədlərdən biri ərazi vergi orqanlarının kadr potensialından səmərəli istifadə edilməklə daha işlək və mütərəqqi idarəetmə mexanizmlərini tətbiq etməkdir. Vergilər nazirinin əmri ilə ərazi vergi orqanlarının strukturlarında edilmiş dəyişikliklər vergilərin tam həcmdə və vaxtında ödənilməsinin təmin olunması, vergi ödəyicilərinə nəzarətin daha səmərəli həyata keçirilməsi, vergi potensialının genişləndirilməsi, eləcə də vergidənyayınma risklərinin təhlili və könüllü əməletmənin səviyyəsinin yüksəldilməsi məqsədi daşıyır. Dəyişikliklərdən əvvəl ərazi vergi orqanları tərəfindən proqnozun icrası ümumi vergi ödəyiciləri üzrə təşkil edilirdi. Struktur dəyişikliklərinə əsasən, ərazi vergi orqanlarında qeydiyyatda olan vergi ödəyicilərinə sahə təhkimçiliyi prinsipi müəyyənləşdirilib ki, bu da nəzarətin tam təmin edilməsinə imkan yaradır. Bundan başqa, bəyannamələr üzrə kameral vergi yoxlamalarının keyfiyyətinin artırılması məqsədilə bəyannamə şöbələrinin tərkibində 2 yeni bölmə yaradılıb.

**- Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən dövlət proqramları, xüsusilə yeni müəssisələrin yaradılması son illər bölgələrin iqtisadi vəziyyətində əsaslı dəyişikliklərə səbəb olub. Bütün bunlar vergi daxilolmalarına necə təsir göstərir?**

- Regionların inkişafı ilə bağlı qəbul edilmiş və uğurla həyata keçirilən dövlət proqramlarında nəzərdə tutulmuş vəzifələrin icrası qeyri-neft sektorunun davamlı inkişafına, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına təkan verir və bunların nəticəsində regionlardan dövlət büdcəsinə daxilolmaların məbləği nəzərəçarpacaq dərəcədə artır. Dövlət proqramlarının icrasından öncə, məsələn, 2003-cü ildə regionlar üzrə vergi daxilolmaları cəmi 37,7 milyon manat təşkil etdiyi halda, 2015-ci ildə bu rəqəm 16,5 dəfə artaraq 622,1 milyon manata çatıb. Regionlarımızın iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatının, torpaq vergisi istisna olmaqla, uzun illərdir bütün vergilərdən azad edildiyini nəzərə alsaq, bu, çox ciddi artımdır.

2003-cü ilin göstəricisi ilə müqayisədə regionlar üzrə vergi daxilolmalarının qeyri-neft sektoru üzrə daxilolmalardakı xüsusi çəkisi 3,9 bənd artaraq 12,4 faiz təşkil edir ki, bu da regionlarda sahibkarlığın inkişafının daha bir bariz göstəricisidir.

Xüsusi vurğulamaq istərdim ki, dövlət proqramlarının uğurlu icrasının nəticəsi olaraq, bu gün artıq respublikanın 6 şəhər və rayonu öz xərclərini mərkəzləşdirilmiş büdcədən dotasiya almadan vergilərin hesabına formalaşdırır və qarşıya qoyulmuş əsas hədəflərdən biri gələcəkdə bunların sayının artırılmasıdır. İndi respublika üzrə qeydiyyatda olan vergi ödəyicilərinin 61,6 faizi regionların payına düşür.

**- 2016-cı ilin 8 ayı ərzində regionlar üzrə proqnoz tapşırıqlarının icrası necə olub?**

- Regionların inkişaf tendensiyası cari ilin 8 ayında da davam edib və bu, vergi daxilolmalarında da özünü göstərir. Yanvar-avqust aylarında ərazi vergi orqanları üzrə 364,5 milyon manat proqnoza qarşı dövlət büdcəsinə 381,1 milyon manat vəsait daxil olub ki, bu da proqnoz tapşırığının 16,6 milyon manat artıqlamasilə və ya 104,6 faiz icra olunması deməkdir. Xüsusilə qeyd etmək lazımdır ki, proqnoz tapşırıqları yalnız ümumilikdə regionlar üzrə deyil, həm də respublikanın ayrı-ayrılıqda bütün şəhər və rayonları üzrə yerinə yetirilib.

Daxilolmaların strukturuna gəlincə, daxil olmuş vergilərin 61,2 faizi ƏDV, mənfəət və gəlir vergisi hesabına formalaşıb. Sadələşdirilmiş vergi daxilolmaları üzrə proqnoz tapşırıqları 6,2 milyon manat artıq və ya 117,2 faiz icra olunmaqla yanaşı, ötən ilin müvafiq dövrü ilə müqayisədə 13 faizə qədər artıb. Regionlarda fəaliyyət göstərən və mərkəzləşdirilmiş qaydada vergi uçotunda olan vergi ödəyiciləri tərəfindən ilin ilk səkkiz ayında 86,7 milyon manat məbləğində vergilərin yerli büdcələrə ödənilməsi təmin edilib.

Əlbəttə, bütün bu göstəricilər həyata keçirilən islahatların, iqtisadi sistemin şəffaflaşmasının, əlverişli biznes mühitinin formalaşmasının, sahibkarlıq subyektlərində cəlbediciliyin artırılmasının nəticəsidir. 2016-cı ilin yanvar-avqust ayları ərzində regionlarda ƏDV qeydiyyatına alınmış vergi ödəyicilərinin sayında ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,2 faiz artım qeydə alınıb.

**- Yaranmış yeni iqtisadi şəraitdə ölkədə sahibkarlığın inkişafı istiqamətində atılan addımlar barədə nə deyə bilərsiniz?**

- 2014-cü ilin sonundan başlayaraq neftin qiymətində kəskin enmə, 2015-ci ildə dünyada mövcud olan geosiyasi vəziyyət və bundan irəli gələn iqtisadi problemlər, təbii ki, dünyanın bir hissəsi olan Azərbaycanın iqtisadiyyatından da yan keçməyib. Bu problemin aradan qaldırılması üçün yeni yaranmış iqtisadi vəziyyətdə qeyri-neft sektorunda genişmiqyaslı islahatlara başlanılıb. İndi sahibkarlığın inkişafı yönündə çox ciddi addımlar atılır.

Sahibkarlıqda xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilib, onların verilməsi prosedurları sadələşdirilib və bu proseslərin «ASAN xidmət» mərkəzlərində verilməsinə başlanılıb. Bundan başqa, lisenziyalar müddətsiz verilməklə regionlarda dövlət rüsumlarının ödənilməsinə 50 faizədək güzəştlər tətbiq olunub. Regionlardakı vergi ödəyicilərinin sadələşdirilmiş vergini Bakıda fəaliyyət göstərən vergi ödəyiciləri kimi 4 faiz deyil, 2 faiz dərəcəsi ilə ödəmələri onların fəaliyyətlərini stimullaşdırmaq məqsədi daşıyır. İlin əvvəlindən ticarət və ictimai iaşə sektorunda çalışan vergi ödəyicilərinin fəaliyyəti üçün əlverişli biznes mühitinin yaradılması üçün Vergi Məcəlləsinə dəyişiklik edilərək, ticarət və ictimai iaşə sahəsində dövriyyəsi 200.000 manatdan yuxarı olan sahibkarlara öz seçimləri əsasında sadələşdirilmiş vergi ödəyicisi hüququ verilib.

Xüsusi qeyd etmək istərdim ki, Azərbaycanda sahibkarlığın inkişafı, bu sahəyə nəzarətin gücləndirilməsi, iş adamlarının hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə Apelyasiya Şuralarının yaradılması sahibkarlığın inkişafına təkan verən mühüm addımlar kimi qiymətləndirilməlidir.

**- Vergilər Nazirliyi tərəfindən aparılan vergi nəzarəti tədbirlərinin sayının azaldılması sahibkarlıq subyektlərinə və ərazi vergi orqanlarının fəaliyyətinə necə təsir göstərib?**

- İqtisadiyyatın şaxələndirildiyi və qeyri-neft sektorunun inkişafının prioritet elan edildiyi yeni mərhələdə sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması məqsədilə dövlət başçısının müvafiq fərmanları ilə sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 il müddətinə dayandırılıb. Həmin fərmanlarda vergi yoxlamaları istisna hesab edilsə də, Vergilər Nazirliyinin kollegiyasının qərarına əsasən, həmin müddətdən sadələşdirilmiş vergi ödəyicilərində səyyar vergi yoxlamalarının aparılması da dayandırıldı. Bunun nəticəsi olaraq, kiçik və orta sahibkarlıq subyektlərində keçirilən vergi nəzarəti tədbirlərinin sayı regionlarda da minimumlaşdırılıb və ilin ilk səkkiz ayı ərzində həyata keçirilən səyyar vergi yoxlamalarının sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfə, operativ nəzarət tədbirlərinin sayı isə 6 dəfəyə yaxın azalıb.

Vergilərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət etmək məqsədilə vergi orqanlarının həyata keçirdiyi vergi nəzarəti tədbirlərindən biri də kameral vergi yoxlamasıdır. Vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində aparılmış islahatlar çərçivəsində risklərin idarə edilməsi sistemi yaradılıb. Beynəlxalq təcrübələr əsasında yaradılmış bu sistem nəzarətin səmərəli aparılmasına imkan verir. Müasir texnologiyalara əsaslanan «risklərin idarə edilməsi» aləti vergidən yayınma hallarını aşkar etməklə mövcud risklərin elektron qaydada idarə olunmasını, daha dəqiq qiymətləndirilməsini və vergi potensialının düzgün nəzərə alınmasını təmin edir. Qeyd edim ki, kameral vergi yoxlamalarının sayının azalmasına baxmayaraq, onların keyfiyyətinin artırılmasına xüsusi diqqət yetirilir. Vergi ödəyicisinin fəaliyyətinə müdaxilə etmədən mövcud informasiya bazası və əlaqəli məlumatlar əsasında «risklərin idarə edilməsi» aləti vasitəsilə təhlil olunmuş məlumatlar sayəsində ərazi vergi orqanları tərəfindən aparılmış kameral hesablamalar üzrə reallaşma faizi ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,5 bənd artmışdır.

**- Azərbaycan Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında sərəncamı əsasında nəzərdə tutulan yeni islahatlar ərazi vergi orqanları ilə işə necə təsir göstərəcək?**

- Azərbaycan iqtisadiyyatının sürətli inkişafı, son 10 ildə vergi ödəyicilərinin sayının əhəmiyyətli dərəcədə artması, eləcə də regionlarda həyata keçirilən dövlət proqramları nəticəsində yeni vergitutma mənbələrinin yaranması, iqtisadiyyatın indiyədək vergitutma bazasına cəlb edilməmiş ayrı-ayrı sahələrinin, o cümlədən rəqəmsal iqtisadiyyatın inkişafı vergi orqanları qarşısında yeni vəzifələr qoyur. Vergitutma bazasının genişləndirilməsi, büdcəyə daha çox vəsait toplanması üçün mövcud ehtiyatların aşkarlanması, bu sahədə vəziyyətin tam şəffaflaşdırılması ilə bağlı dövlət başçısının konkret tapşırıqlarının nəticəsi olaraq, vergi sistemində ciddi islahatlar həyata keçirilir. Ölkə Prezidentinin 4 avqust 2016-cı il tarixli sərəncamı vergi sisteminin inkişafına, xüsusilə də vergi inzibatçılığının səmərəliliyinin artırılmasın sahəsində yeni bir mərhələ açır.

Sərəncama əsasən, vergi sahəsində aparılacaq islahatların 21 əsas istiqaməti müəyyən edilib ki, bu tədbirlərə vergitutma bazasının genişləndirilməsi, vergi yoxlamalarının təyin edilməsi, keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi prosesi üzrə vergi inzibatçılığının təkmilləşdirilməsi, intizamlı vergi ödəyicilərinin müəyyənləşdirilməsi, vergi yoxlamalarının qanunla müəyyən edilmiş tələblərə əməl olunmaqla qısa müddətdə başa çatdırılması, elektron auditin tətbiqi dairəsinin genişləndirilməsi, vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması, risk qiymətləndirilməsi sisteminin yaradılması, vergi bəyannamələrinin formalarının təkmilləşdirilməsi istiqamətində vergi islahatlarının davam etdirilməsi və s. aiddir. Sərəncamın icrası vergi sistemində, o cümlədən ərazi vergi orqanlarında islahatların davam etdirilməsinə və vergi inzibatçılığının daha da təkmilləşdirilməsinə yeni bir təkan verib.

**- Vergi mədəniyyətinin formalaşması vergilərin düzgün hesablanmasına, dövlət büdcəsinə tam və vaxtında köçürülməsinə təsir edən amillərdəndir. Ərazi vergi orqanları tərəfindən vergi ödəyicilərinin məlumatlandırılması sahəsində hansı işlər görülür?**

- Vergi qanunvericiliyində edilmiş dəyişikliklər, eləcə də həyata keçirilən islahatlar, həmçinin vergi sistemində aparılan şəffaflaşdırma tədbirləri barədə vergi ödəyicilərini məlumatlandırmaq, bu sahədə sahibkarların qarşılaşdıqları problem və çətinliklərlə yerindəcə tanış olmaq Baş İdarənin fəaliyyətinin əsas istiqamətlərindəndir.

Vergi Məcəlləsinə cari ilin əvvəlində edilmiş dəyişikliklərin mahiyyətini vergi ödəyicilərinə izah etmək məqsədilə nazirliyin vəzifəli şəxslərindən ibarət qruplar tərəfindən mart ayında bütün regionlarda görüşlər təşkil edilib. Keçirilən tədbirlərdə sahibkarların nəzərinə çatdırılıb ki, sahibkarlığa dövlət dəstəyi gücləndirilir, xüsusilə də sahibkarlığın inkişafına mane olan əngəllərin aradan qaldırılması üçün dövlət tərəfindən bütün zəruri tədbirlər görülür və yeni iqtisadi şəraitdə ölkəmizin bundan sonrakı inkişafı əsasən sahibkarlığın inkişafından asılı olacaq. İndi ölkəmizdə daha əlverişli biznes mühiti formalaşıb və sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi istiqamətində bütün zəruri tədbirlər görülüb. Vergi Məcəlləsində edilmiş dəyişikliklər barədə sahibkarlara ətraflı məlumat verilib, onlara izah edilib ki, bu dəyişikliklər vergi inzibatçılığının sadələşdirilməsi ilə yanaşı, vergi yükünün əhəmiyyətli dərəcədə aşağı salınması, kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinin cəlbediciliyinin artırılmasına şərait yaradır. Çoxsaylı görüşlər zamanı vergi ödəyiciləri ilə geniş fikir mübadiləsi aparılır, onları maraqlandıran suallar cavablandırılır.

# Vergi bəyannamələrinin elektron formada göndərilməsinin üstünlükləri

**Vergi bəyannamələrinin elekətron formada təqdim edilməsi vergi inzibatçılığında təkmilləşməyə, iş həcminin azalmasına gətirib çıxarmışdır. Elektron bəyannamələrin tətbiqi həm də vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin spektrinin genişləndirilməsinə, e-xidmətlərdən istifaədəənin kütləviləşməsinə səbəb olmuşdur.**

Vergi bəyannamələrinin elekətron formada vergi orqanına göndərilməsinin üstünlüklərinə gəldikdə isə, vergi ödəyicisi vergi orqanına gəlmədən və vergi orqanının əməkdaşı ilə təmasa girmədən, tam şəffaf şəkildə, özünə rahat mühitdə və zamanda bəyannaməni internet vasitəsilə təqdim edə bilər. Bəyannamənin tərtibinə və düzgünlüyünün yoxlanılmasına proqram təminatı vasitəsilə kömək göstərilir. Bəyannamələr elektron formada saxlanılır, vergi ödəyicisinə öz şəxsi hesab vərəqəsinə baxa bilmək, büdcəyə olan borcları barədə məlumatlar əldə etmək imkanı yaradılır.

### Maarifləndirmənin müsbət nəticələri

Bəyannamələrin vaxtında, o cümlədən elektron formada vergi orqanına təqdim edilməsi istiqamətində vergi ödəyicilərinə xidmət strukturları tərəfindən vergi ödəyicilərinə hərtərəfli şərait yaradılır. Vergi ödəyiciləri həm xidmət mərkəzlərinə müraciət etməklə onlara xidmət göstərən təmsilçilərin köməyindən yararlana, həm də orada quraşdırılmış özünə xidmət kompüterlərindən istifadə edə bilirlər. Vergi ödəyicilərinin əksəriyyəti bəyannamələrini internet üzərindən sərbəst şəkildə tərtib edib vergi orqanına göndərirlər. Bunun üçün nazirliyin internet saytında bütün vergi bəyannamələrinin elektron formada göndərilməsini izah edən videotəlimat da yerləşdirilmişdir. Ümumiyyətlə, vergi orqanları tərəfindən bu istiqamətdə mütəmadi olaraq geniş məlumatlandırma və izahat işləri aparılır, vergi ödəyiciləri ilə görüşlər keçirilir. Vergi bəyannamələrinin vaxtında təqdim edilməsi və hesablanmış vergilərin vaxtında ödənilməsi məqsədilə Vergilər Nazirliyi tərəfindən hazırlanmış xüsusi bildiriş və elan formaları vergi ödəyicilərinə göndərilir, kütləvi informasiya vasitələrində elanlar yayımlanır. Vergilər Nazirliyinin rəsmi internet səhifəsi və «195» Çağrı Mərkəzi vasitəsilə vergi ödəyiciləri məlumatlandırılır, bəyannamələrin vaxtında təqdim edilməsi məqsədilə onların telefon nömrələrinə mesajlar göndərilir.



Vergilər Nazirliyi tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsində vergi bəyannamələrinin vaxtında təqdim edilməsi səviyyəsi də yüksəlmişdir. Müqayisə üçün bildirək ki, 2003-2004-cü illərdə bəyannamələrin vaxtında təqdim olunması səviyyəsi 70-75 faiz təşkil etdiyi halda, 2013-cü ildən bəri hər il bu rəqəm 90 faizdən yüksək olmuşdur. Elektron xidmətlərdən istifaədənin üstünlükləri barədə aparılan təbliğat və izahat işləri nəticəsində bəyannamələrin elektron qaydada təqdim edilməsi səviyyəsi də yüksəlmişdir. 2013-cü ildə bəyannamələrin 93,4 faizi, 2014-cü ildə 91,6 faizi, 2015-ci ildə 94,9 faizi, 2016-cı ilin yanvar-avqust aylarında isə 94,6 faizi elektron formada təqdim edilmişdir.

Qeyd edək ki, vergi ödəyicilərinin və eyni zamanda bəyannamə təqdim etməli olan vergi ödəyicilərinin sayının xeyli artmasına baxmayaraq, bəyannamələrin vaxtında təqdim edilmə səviyyəsinin əvvəlki illərlə müqayisədə yüksək olması artıq vergi ödəyicilərinin bu barədə kifayət qədər məlumatlı olduqlarını gösətərir.

### Vergi bəyannamələri təkmilləşdirilir

Vergi sisteminin inkişafı çərçivəsində mütəmadi olaraq bəyannamələrin təkmilləşdirilməsi, tərtibatının sadələşdirilməsi həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin 4 avqust tarixli «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» Sərəncamının tələblərinə uyğun olaraq Vergilər Nazirliyi tərəfindən «Gəlir vergisinin bəyannaməsi», «Mənfəət vergisinin bəyannaməsi», «Torpaq vergisinin bəyannaməsi», «Əmlak vergisinin bəyannaməsi» və onların tərtib edilmə qaydaları, «Dövlət rüsumunun tutulması haqqında hesabat»ın forması, «Dövlət rüsumunun tutulması haqqında hesabatın tərtib edilməsi qaydası», habelə «Sadələşdirilmiş vergininin bəyannaməsi» və «Əlavə dəyər vergisinin bəyannaməsi»nə, «Xüsusi notariusun gəlir vergisi bəyannaməsinə», «Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi»nə əlavələr və onların tərtib edilmə qaydalarına dəyişikliklər təsdiq edilib. Bu dəyişikliklər vergi inzibatçılığının daha da təkmilləşdirilməsinə və bəyannamə formalarının sadələşdirilməsinə, ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq real vergi potensialının düzgün müəyyənləşdirilməsinə, bəyannamələr vasitəsilə əldə olunan məlumatların dəqiqləşdirilməsi hesabına vergi ödəyicilərində keçirilən nəzarət tədbirlərinin sayının azaldılmasına xidmət edəcək.

### Vergi bəyannamələrinin 95 faizi elektron formada göndərilir

Azərbaycanda vergi bəyannamələrinin elekətron formada göndərilməsinə 2007-ci ildən başlanmışdır. Vergi ödəyicilərinin bəyannamələri elektron formada təqdim etməsinə şərait yaratmaq üçün İnternet Vergi İdarəsində (e-taxes.gov.az), habelə Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində (AVİS) elektron bəyannamələrin qəbulu və işlənməsi üzrə xüsusi Bəyannamə Tərtibatı Proqramı (BTP) yaradılmışdır. Bununla da vergi ödəyiciləri vergi orqanından istifadəçi kodu, şifrə və parol almaqla elektron formada bəyannamə göndərmək hüququnu əldə etməklə, vergi orqanındakı qeydiyyat məlumatları və büdcə qarşısındakı öhdəlikləri ilə tanış olmaq imkanı qazanmışlar.

2009-cu ildən sadələşdirilmiş vergi bəyannaməsinin BTP proqramından istifadə etmədən onlayn rejimdə İnternet Vergi İdarəsi vasitəsilə tərtib edilməsi və göndərilməsinə imkan yaradılmışdır. Bundan əlavə, Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarı ilə təsdiq olunmuş siyahıya dəyişiklik edilərək, Vergilər Nazirliyi tərəfindən təqdim olunan elektron xidmətlərin siyahısına «Çağrı Mərkəzi vasitəsilə sadələşdirilmiş verginin bəyannaməsinin təqdim edilməsi» xidməti əlavə olunmuşdur. Çağrı Mərkəzi tərəfindən AVİS-də «Sadələşdirilmiş verginin bəyannaməsi» elektron formada tərtib edilərək gücləndirilmiş elektron imza vasitəsilə təsdiqlənmək üçün vergi ödəyicisinə təqdim olunur, məlumatların doğruluğu təsdiqləndikdən sonra isə bəyannamə vergi orqanına göndərilir və bu barədə vergi ödəyicisinin mobil telefonuna mesaj daxil olur. 2013-cü ildən etibarən isə Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi fəaliyyətə başlamış və bununla da bütün mövcud e-xidmətlər kimi, bəyannamələrin də elektron formada göndərilməsində ASAN imzadan (mobil imza) istifadə mümkün olmuşdur.

# İNNOVASİYA

*İqtisadiyyatımızın innovasiya iqtisadiyyatına istiqamətləndiyi bir şəraitdə əhalinin innovasiya fəallığının yüksəldilməsi ən vacib problemlərdən biridir. Etiraf edək ki, xalq təsərrüfatının əksər sahələrində çalışan işçilərin innovasiya fəallığı aşağıdır.*

*İnnovasiya fəallığının yüksəldilməsi üzrə ölkəmizdə tədqiqatların aparılmamasını və milli dilimizdə yazılı materialların qıtlığını nəzərə alaraq professor Albert Tağıyevin bu yaxınlarda işıq üzü görmüş "İnnovasiya" kitabından (9-cu broşüra) silsilə məqalələri oxucuların nəzərinə çatdırırıq.*





A.H.TAĞIYEV,
Sumqayıt Dövlət Universitetinin "Menecment" kafedrasının müdiri, professor

*(əvvəli ötən saylarımızda)*

### FƏSİL 2. MÜƏSSİSƏLƏRDƏ İNNOVASİYA FƏALLIĞININ YÜKSƏLDİLMƏSİ YOLLARI

İnsanların innovasiya fəallığının yüksəldilməsinin ümumi istiqamətləri aşağıdakılardır:

- kütləvi informasiya vasitələrində innovasiyanın geniş təbliğ edilməsi;
- insanların əməyə, işin keyfiyyətinin yüksəldilməsinə münasibətlərini yaxşılaşdırmaq. Bu sahədə motivləşdirmə üsullarına üstünlük vermək;
- yenilik üzrə müsabiqələrin keçirilməsi;
- məhsulun keyfiyyətinin yüksəldilməsinin axtarışı;
- əmək kollektivində ailə münasibətlərinin formalaşdırılması və s.

Burada biz kütləvi informasiya vasitələrində geniş əhali kütləsinin innovasiya fəallığının yüksəldilməsində müstəqil iqtisadi-siyasi qəzet olan Azərbaycan İqtisadçılar İttifaqının "İqtisadiyyat" qəzetinin iş təcrübəsindən və qeyd edilən sahədə işçilərin motivləşdirilməsi üzrə transmilli korporasiyalar olan "Sony", "Toyota" və "İBM" şirkətlərinin iş təcrübəsi haqqında araşdırmaların nəticələrini verəcəyik.

### Müəssisələrdə innovasiya fəallığının yüksəldilməsində kursların və müsabiqələrin əhəmiyyəti

Müasir dünyada bilgi istehsalı və yaxud biliyin dəyərə çevrilməsi innovasiya vasitəsi ilə mümkündür. Artıq "Elmin iqtisadiyyatda tətbiqinin əsası innovasiyadır" fikri dünyanın inkişaf etmiş ölkələrində öz təsdiqini tapmışdır. Bunu əsaslandırmaq üçün Finlandiya örnəyinə müraciət edə bilərik. Belə ki, XX əsrin sonuncu onilliyindən başlayaraq bu ölkədə elmin, innovasiyaların və təhsilin maliyyələşdirilməsinə böyük vəsaitlər ayrılmışdır. XXI əsrin ilk illərindən isə bu ölkədə elmə, innovasiyalara və təhsilə ayrılan vəsaitlər ÜDM-in 3,5%-ni təşkil etməklə 5 mlrd. avroya çatmış, təhsilə ayrılan vəsaitlər isə ÜDM-in 4,9%-ni təşkil etmiş, yaxud 7,4 mlrd. olmuşdur. Nəticədə, Finlandiya bir neçə ildir ki, rəqabət qabiliyyətlilik indeksi üzrə dünyanın ən qabaqcıl ölkələri arasında möhkəmlənmişdir. Finlərin uğurunun əsasında 3 amil durur: təhsilin yüksək səviyyəsi, elmə vəsaitin müsabiqə prinsipi ilə ayrılması və inkişaf etmiş innovasiya infrastrukturu.

Nəhayət, qeyd edilməlidir ki, hazırki müasir qlobal maliyyə böhranı bir sıra ölkələrin iqtisadiyyatına özünün mənfi təsirlərini göstərməkdə davam edir. Bu böhrana dünya bazarında enerji resurslarının, xüsusi ilə neftin və qazın qiymətinin aşağı düşməsini də əlavə etsək, milli iqtisadiyyatımızın davamlı inkişaf etdirilməsi istiqamətində hələ çox işlərin görülməsi qaçılmazdır. Bundan başqa, həm ölkəmizin daxilində, həm də bir çox MDB ölkələrində milli valyutanın məzənnəsində baş verən meyiletmələr büdcə gəlirlərinin azalması ilə yanaşı, əldə edəcəyimiz gəlirlərə də təsirsiz ötüşmür. Məhz bu səbəbdən də hazırki ilə büdcəmizin hazırlanmasında bazis kimi neftin qiymətinin 50$ götürülməsinə baxmayaraq, beynəlxalq dünya bazarında baş verə biləcək dəyişikliklərə cavab olaraq tarazlı və effektiv fəaliyyət məqsədi ilə bir neçə variantda büdcə layihəsi tərtib olunmuşdur.

Yuxarıda göstərilənlərə əsasən, ölkəmiz beynəlxalq miqyasda baş verən prosesləri, təsiredici meyilləri nəzərə alaraq iqtisadi strategiyasını milli iqtisadiyyatın təhlükəsizliyinə və dinamik inkişafa istiqamətləndirməlidir. Bu baxımdan bütün iqtisadi fəaliyyət sferalarında rəqabət qabiliyyəti yüksəldilməli və innovasiyalı iqtisadiyyata önəm verməklə, davamlı iqtisadi inkişaf təmin edilməlidir. Əks təqdirdə müəyyən müddət keçdikdən sonra ölkəmiz yenidən gözləmədiyi və arzuedilməz böhrana düçar ola bilər ki, hətta bu zaman inkişafın başlanğıc imkanlarının itirilməsi baş verər. Ona görə də innovasiyalı iqtisadiyata yönləndirmə həm dövlətimizin, həm də sahibkarların daima diqqət mərkəzində olmaqla, bu istiqamətə qoyulacaq investisiyalar mütəmadi olaraq artırılmalıdır.

İqtisadi inkişafda istehsal sahələrinə və sosial sahəyə elmi-texniki tərəqqinin nailiyyətlərini tətbiq etmək üçün innovasiya fəaliyyətinin həyata keçirilməsi mütləqdir. İqtisadiyyatın dinamik inkişaf etdirilməsində innovasiya fəaliyyətinə aşağıdakılar daxil edilə bilər :

-uzunmüddətli elmi-texniki proqramların həyata keçirilməsi;
-iqtisadiyyatın transformasiyası məqsədi ilə məhsuldar qüvvələrin vəziyyətində keyfiyyət dəyişiklikləri etmək üçün fundamental tədqiqatların maliyyələşdirilməsi;
-texnika və texnologiyanın prinsipcə yeni, qənaətçil növlərinin hazırlanması, buraxılması, yayılması və tətbiq edilməsi;
- təşkilatlarda işçilərin innovasiya fəallıqlarının yüksəldilməsi və onun artırılması yollarının daima axtarılması;
- iqtisadi potensialın gücləndirilməsində üstünlüyün innovasiya fəallığı ilə müəssisələrin inkişafının qarşılıqlı əlaqələndirilməsinə verilməsi;
- beynəlxalq standartlara cavab verən rəqabət qabiliyyətli yeni məhsulların hazırlanması və onların xarici bazara çıxarılması və s.

İnnovasiya prosesinin əsas mərhələləri aşağıdakılardan ibarətdir:

- daxil olmuş ideyaların sistemləşdirilməsi;
- yeni məhsul ideyalarının hazırlanması;
- yeni məhsulun iqtisadi səmərəliliyinin təhlili;
- marketinq proqramının hazırlanması;
- yeni məhsulların hazırlanması;
- bazarda testləşdirmə aparılması;
- istehsalda yeni məhsulun tətbiqi barədə qərar qəbul edilməsi.

Beləliklə, innovasiya prosesinin son məqsədi yeni məhsulun kommersiya qabiliyyətinin yüksəldilməsi və kütləvi istehsalının təşkilidir. İnnovasiyalı iqtisadiyyatın nüvəsində duran rəqabət qabiliyyətli texnologiyalar öz-özünə yaranmır. Həmin texnologiyalar elmi-tədqiqatın mürəkkəb və məsrəfli eksperimentlərindən, nəhayət alimlərin ideya ruhundan qaynaqlanan çox çətin başa gələn məhsuldur. Yüksək brendli əmtəələrin istehsalı üçün, əlbəttə, xarici texnologiyaları əldə etmək labüddür. Amma unutmamalıyıq ki, özünün milli maraqlarını gözləyən ölkə çətin başa gələn yeni texnologiyaları və istehsal sirlərini asanlıqla satmaq istəməyəcəkdir.

Harvard Universitetinin professoru Maykl Porterin (1947) əsərlərində rəqabət qabiliyyəti tədqiq olunmuşdur. Onun nəzəriyyəsi milli rəqabət qabiliyyətini formalaşdıran determinantlara əsaslanır. M.Porter XXI əsrdə daha çox inkişaf etmiş ölkələrin təcrübəsini ümumiləşdirir. Onun fikrinə görə, ən mühüm nəticələr bundan ibarətdir:

- milli çiçəklənmə irsən keçmir, onu yaratmaq lazımdır;
-ölkələrin və regionların rəqabət qabiliyyəti mövcud təbii ehtiyatlardan daha çox onlardan səmərəli istifadə səviyyəsi ilə müəyyən edilir.

*(davamı var)*

# Vergi partnyorluğu sazişi qarşılıqlı etibara və şəffaf münasibətə zəmin yaradır

**Vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərdə mübahisəli məsələlərin minimuma endirilməsi baxımından vergi partnyorluğu sazişi mütərəqqi yanaşmalardan biri hesab olunur.**

### Partnyorluq sazişi ilk növbədə vergi ödəyicilərinin mənafeyinə xidmət edir

Vergi partnyorluğu sazişi - vergi orqanı ilə vergi ödəyicisi arasında qarşılıqlı etibara, şəffaflığa və anlaşmaya əsaslanmaqla, vergi risklərinin minimallaşdırılması məqsədilə könüllü şəkildə bağlanılan niyyət razılaşmasıdır. Sazişin məqsədləri aşağıdakılardan ibarətdir:

- sahibkarlığa lüzumsuz müdaxilələrin qarşısını almaqla onun inkişafını stimullaşdırmaq;
- əməkdaşlığa, qarşılıqlı etibara və şəffaf münasibətlərə əsaslanan birgə fəaliyyəti təmin etmək;
- müasir idarəetmə alətləri tətbiq olunmaqla biznes subyektlərini vergi orqanlarının fəaliyyətinə cəlb etmək;
- vergilərin ödənilməsi ilə bağlı könüllü əməletmə səviyyəsinin artırılması istiqamətində partnyorluq etmək;
- ədalətli, çevik, effektiv və səmərəli vergi nəzarəti sistemi yaratmaq;
- vergi risklərini minimallaşdırmaq.

Müşahidələr göstərir ki, partnyorluq sazişini imzalamış vergi ödəyicisi vergi öhdəliklərinə vaxtlı-vaxtında, qanunvericiliyə uyğun şəkildə əməl etməyə çalışır və nəticədə vergi orqanı inzibatçılıq xərclərindən, vaxt itkisindən azad olur. Ən vacibi isə budur ki, saziş vergi ödəyicilərinin fəaliyyətinə müdaxilələrin azalmasına gətirib çıxarır. Sazişi imzalamış vergi ödəyiciləri özlərindən asılı olmayan səbəblərdən yol verdikləri müəyyən xətalara görə müvafiq sanksiyalardan qurtula bilirlər. Bununla yanaşı, partnyorluq sazişini imzalayan sahibkarların vergi orqanlarından zəruri informasiyaları almaq imkanları daha da genişlənir, onlar biznesin inkişafı ilə bağlı gələcəkdə yarana biləcək vergi öhdəlikləri barədə əvvəlcədən məlumatlı olurlar. Sazişin qüvvədə olduğu dövr ərzində vergi orqanı tərəfindən qanunvericilikdə və vergi inzibatçılığında aparılan dəyişikliklər barədə vergi ödəyicisi operativ qaydada məlumatlandırılır, vergi öhdəliklərinin yerinə yetirilməsində ona lazımı metodiki köməkliklər göstərilir.

### Hər bir vergi ödəyicisi partnyorluq sazişi üçün müraciət edə bilər

Nazirlər Kabinetinin təsdiq etdiyi «Vergi partnyorluğu sazişinin bağlanması Qaydaları»na uyğun olaraq, hər bir vergi ödəyicisinin partnyorluq sazişi imzalamaq üçün vergi orqanına müraciət etmək hüququ vardır. Sazişin bağlanması üçün vergi ödəyicisi könüllülük prinsipi əsasında vergilər nazirinin əmri ilə təsdiq edilmiş «Vergi partnyorluğu sazişinin bağlanması üçün Ərizə» formasını dolduraraq vergi orqanına müraciət edir. Daxil olmuş müraciətə 15 gün müddətində baxılır və sazişin bağlanması barədə qərar qəbul edildikdən sonra vergi ödəyicisinə yazılı məlumat verilir.

Sazişin imzalanması zamanı ilk növbədə o vergi ödəyicilərinə üstünlük verilir ki, onların uçot sistemi elektronlaşdırılmışdır. Yəni İKT-nin ən son imkanlarından yararlanan vergi ödəyiciləri həm vergi qanunvericiliyinə tam əməl etmək imkanı qazanır, həm də maliyyə-uçot sistemini şəffaf şəkildə qururlar. Bundan əlavə, sazişin imzalanması zamanı vergi ili ərzində yaranmış vergi öhdəliklərini tam və vaxtında icra edən, ƏDV ödəyicisi olan, alqı-satqı əməliyyatlarını nağdsız qaydada həyata keçirən vergi ödəyicilərinə üstünlük verilir. Sənədin imzalanması vergi öhdəliklərinin yerinə yetirilməsinə heç bir təsir göstərmir. Lakin vergi ödəyicisinin dövlət büdcəsi qarşısında vergi öhdəlikləri olduqda vergi ödəyicisinin gəlirlərinin və ya vergitutma obyektinin gizlədilməsi (azaldılması) müəyyənləşdirildikdə vergi orqanı yazılı məlumat verməklə sazişin bağlanılmasından imtina edir. Sənəd qüvvədə olduğu müddətdə onun şərtlərinə əməl etməyən vergi ödəyiciləri ilə imzalanmış sazişə xitam verilə bilər.

### Müasir iqtisadi yanaşmanın ən yaxşı metodlarından biri...

Azərbaycan Marketinq Cəmiyyətinin sədri Rəhim Hüseynovun fikrincə, vergi partnyorluğu sazişi Vergilər Nazirliyinin təşəbbüsü ilə reallaşdırılmış mühüm yeniliklərdən biri kimi sahibkarların vergi orqanına, dövlətə inamını gücləndirir. Azərbaycan iqtisadiyyatının hazırkı səviyyəsində dünya təcrübəsində özünü doğrultmuş yeniliklərin praktiki şəkildə tətbiqi, ilk növbədə, hökumətin biznesin inkişafına töhfəsidir: «Vergi partnyorluğu sazişinin fəlsəfəsində hər iki tərəfin səmimi əməkdaşlıq etmək, qarşılıqlı öhdəlikləri yerinə yetirmək məramı dayanır. Bu baxımdan, mən bu sənədi «səmimilik sazişi» adlandırardım. Qanundakı bu yenilik göstərir ki, hökumət vergi ödəyicilərinin fəaliyyətinin müasir dövrün tələblərinə cavab verməsində, tamamilə şəffaf, qanunvericiliyin tələblərinə uyğun qurulmasında maraqlıdır. R.Hüseynovun sözlərinə görə, hər hansı mütərəqqi yeniliyin cəmiyyətə dolğun və hərtərəfli şəkildə çatdırılmasında dövlət orqanları ilə yanaşı, kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları da yaxından iştirak etməlidir. Təəssüf ki, cəmiyyətdə iş adamlarının böyük bir qismi partnyorluq sazişinin onlara vəd etdiyi üstünlüklərdən xəbərsizdirlər: «Bu baxımdan, hesab edirəm ki, sazişin əsl mahiyyətinin ictimaiyyətə dolğun şəkildə çatdırılması üçün təbliğat işləri gücləndirilməlidir. Azərbaycan Marketinq Cəmiyyəti olaraq biz də bu istiqamətdə üzərimizə düşən işləri yerinə yetirməyə hazırıq».



Özəl vergi məsləhəti xidməti göstərən «İntellektual Hüquq Mərkəzi» MMC-nin nümayəndəsi Akif Osmanov vergi orqanları ilə ödəyicilər arasında münasibətlərin yeni dövrün tələblərinə uyğun qurulması məqsədilə həyata keçirilən məqsədli tədbirləri dəyərləndirdiyini bildirmişdir. Vergi ödəyiciləri ilə vergi orqanları arasında əməkdaşlığın yeni formalarının qurulması, ödəyicilərə göstərilən xidmətlərin yeni üsul və vasitələrinin tapılması, bu sahədə yeni yanaşmaların tətbiqi mühüm tədbirlər hesab oluna bilər: «Sahibkarlarla dövlət qurumu arasında müasir iqtisadi yanaşmanın ən yaxşı metodlarından biri də partnyorluq sazişidir. Vergi partnyorluğu xarici ölkələrdə xeyli müddətdir ki, tətbiq olunur. Vergi sisteminə bu yeniliyi gətirmək Vergilər Nazirliyinin çevik islahatlara böyük önəm verdiyinin əyani göstəricisidir».

# Yeni rəqəm açıqlandı

01.08.2016-cı il tarixinə banklarda əhalinin əmanətləri 7 milyard 843,8 milyon manat təşkil edib.

Mərkəzi Banka istinadən xəbər verir ki, bu, iyul ayının əvvəli ilə müqayisədə 28,2 milyon manat çoxdur. İyulun əvvəlində əhalinin banklarda 7 milyard 815.6 milyon manat əmanəti var idi.

Banklardakı əmanətlərin 81%-dən çoxu dollardadır. Son 3 ayda dolların məzənnəsi qalxdığından banklardakı əmanətlər manat ilə ifadədə artıb. Əslində artım çox olmalı idi. Geri götürülən əmanətlər bu artımın bir hissəsini silib.



# Türkiyə Azərbaycana təxminən 13 milyon dollarlıq meyvə-tərəvəz ixrac edib



2016-cı ilin yanvar-avqust ayları ərzində Türkiyədən Azərbaycana 12,84 milyon dollar dəyərində 33 min 500 ton yaş meyvə və tərəvəz ixrac olunub.

Azərbaycana ixrac 2015-ci ilin anoloji dövrü ilə müqayisədə 98% artıb. 2015-ci ilin yanvar-avqust ayları ərzində Türkiyədən Azərbaycana 6,48 milyon dollar dəyərində 12 min 231 ton meyvə-tərəvəz ixrac olunmuşdu.

Türkiyənin Azərbaycana göndərdiyi 12,84 milyon dollarlıq meyvə və tərəvəzin 6,36 milyon dollarını tərəvəz, 5,40 milyon dollarını sitrus meyvələr (limon, portağal, mandarin, greyfurt), qalanını isə digər meyvələr təşkil edib.

### TƏRƏVƏZ İXRACI KƏSKİN ARTIB

2016-cı ilin Yanvar-Avqust ayları ərzində ötən ilin eyni dövrü ilə müqayisədə Azərbaycana tərəvəz ixracı 12 dəfədən çox artaraq 501 min 422 dollardan 6 milyon 357 min dollara yüksəlib. Eyni dövrdə sitrus meyvələrin ixracı 4% artaraq 5 milyon 166 min dollardan 5 milyon 397 min dollara qalxıb.

Azərbaycan Türkiyədən ən çox portağal alan 4-cü ölkədir. Türkiyə bu ilin 8 ayında Azərbaycana 2 milyon 211 min dollar dəyərindən 2 min 72 ton portağal ixrac edib.

Azərbaycan Türkiyənin ən çox meyvə tərəvəz ixrac etdiyi ölkələr siyahısında 17-ci yerdədir. Qardaş ölkə ən çox meyvə-tərəvəzi İraq, Almaniya, Rusiya, Rumıniya və Səudiyyə Ərəbistanına satır.

Türkiyə tərəvəzlərdən ən çox pomidor, bibər, boranı, xiyar və kartof, meyvələrdən isə albalı, limon, portağal, nar, üzüm, ərik və şaftali ixrac edir.

Türkiyə bu ilin 8 ayında 182,9 milyon dollarlıq albalı (gilas), 173,4 milyon dollarlıq pomidor, 129 milyon dollarlıq limon, 82,7 milyon dollarlıq portağal, 67,3 milyon dollarlıq bibər ixrac edib. Ölkənin albalı və pomidor ixracı ötən ilin eyni dövrü ilə müqayisədə təxminən yarıbayarı azalıb. Ölkə 8 ayda 1 milyard 60 milyon dollarlıq meyvə və tərəvəz ixrac edib (8% azalıb).

# Bank rəhbərləri ilə növbəti görüş



Maliyyə Bazarlarına Nəzarət Palatasında (MBNP) Azərbaycanda fəaliyyət göstərən bankların rəhbərləri ilə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə mövzusunda görüş keçirilmişdir. Bu barədə Palatadan bildirilib.

Görüşdə «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq hesabatlığın təmin edilməsi, bu sahədə tətbiq edilən daxili nəzarət sistemlərinin daha da təkmilləşdirilməsi, komplayens departamentlərinin fəaliyyətinin effektivliyinin artırılması və digər əlaqədar məsələlər barədə müzakirələr aparılmışdır.

Görüşdə həmçinin Maliyyə Bazarlarına Nəzarət Palatasının Maliyyə Monitorinqi Xidmətinin əməkdaşları tərəfindən illər üzrə hesabatlıq statistikası, məlumatların keyfiyyəti barədə təfərrüatlı məlumat və banklarla qarşılıqlı əməkdaşlığa dair məsələlər diqqətə çatdırılmış, bu sahədə bankların müvafiq bölmələrinin işinin təşkili və daxili nəzarət sisteminin tətbiqinə dair tövsiyələr verilmişdir.

